**SUMQAYIT REGİONAL MƏDƏNİYYƏT VƏ TURİZM İDARƏSİ**
**SUMQAYIT ŞƏHƏR SƏMƏD VURĞUN ADINA MƏRKƏZI KITABXANANIN**
**METODIKA -BIBLIOQRAFIYA ŞÖBƏSI**

# Molla Pənah Vaqif – 300

Molla Pənah Vaqifin poeziyası üzrə
qiraət müsabiqəsi haqqında

ƏSASNAMƏ

**SUMQAYIT – 2017**

**Molla Pənah Vaqifin poeziyası üzrə qiraət müsabiqəsi haqqında**

**Əsasnamə**

## 1. Tədbirin təşkilatçıları

- Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi
- Azərbaycan Yazıçılar Birliyi Sumqayıt şəhər şöbəsi

## 2. Məqsəd və vəzifələr

- Oxucular arasında XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim Vaqifin yaradıcılığı haqqında daha dolğun təsəvvür yaratmaq;
- Oxucuları keçirilən tədbirlərdə fəal iştiraka cəlb etmək;
- Azərbaycan klassik ədəbiyyatına məhəbbət hissləri aşılamaq;
- Qiraətçilik qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək vermək.

## 3. Müsabiqənin təşkili və keçirilməsi qaydaları

Müsabiqənin təşkilinə ümumi rəhbərlik Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi və Azərbaycan Yazıçılar Birliyi Sumqayıt şəhər şöbəsi tərəfindən həyata keçirilir

Müsabiqədə Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminə daxil olan kitabxana filiallarının oxucuları iştirak edir.

Müsabiqəni mütəşəkkil və yüksək səviyyədə keçirmək məqsədi ilə müsabiqə komissiyası yaradılır.

## 4. Müsabiqənin keçirilməsi şərtləri

- Müsabiqədə 10 - 20 yaş arası uşaq və gənclər iştirak edə bilər.
- Müsabiqədə ifa olunan şeir üçün 3-4 dəqiqə vaxt verilir.
- Müsabiqədə iştirakla bağlı S.Vurğun adına Mərkəzi kitabxanaya müraciət etməlidirlər:

- müsabiqənin seçim turları 3 noyabr 2017-ci il tarixində Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi kitabxanada keçiriləcəkdir.

- Müsabiqə qalibləri münsiflər heyəti tərəfindən seçiləcəkdir.

## 5. Qaliblərin mükafatlandırılması

Müsabiqə qaliblərinin cıxışı isə noyabr ayının 15-də keçiriləcəkdir.

Müsabiqə iştirakçıları hədiyyələr, I, II, III yerləri tutan iştirakçılar isə fəxri fərman və hədiyyələrlə mükafatlandırılacaqdır.

Əlavə maliyyələşdirmə (sponsor vəsaitləri) olduqda Müsabiqənin qaliblərinin və iştirakçılarının həvəsləndirilməsinin başqa növləri də nəzərdə tutulur.